Кәсіпкерлікті дамыту көптеген проблемаларға тап болады, атап айтқанда, ақпараттық, қаржылық, институционалдық, білім беру, сондай-ақ мемлекеттік (бюрократия, сыбайлас жемқорлық), осы проблемалардың барлығын шешуге болады және жақын арада біздің еліміз осы проблемаларды шешу міндетін шеше алады. Осы шешімдердің арқасында еліміздің экономикасы тұтастай дамитын болады.

Қазақстанда кәсіпкерліктің қалыптасуы мен дамуы өтпелі кезеңнің күрделі және әрдайым қолайлы емес әлеуметтік-экономикалық жағдайларында, Елеулі макроэкономикалық дағдарыс және халықтың өмір сүру деңгейінің төмендеуі аясында орын алды. Қазіргі уақытта Қазақстанда кәсіпкерлік түрлі түрлерде дамып келеді. Ішкі нарықты дамыту, шағын және орта бизнесті қолдау ерекше назар аударуды талап етеді. Жаңа бизнес құрылымдар арасында мемлекеттік және муниципалды кәсіпорындарды, инвестициялық қорлар мен компанияларды қайта құру кезінде құрылған акционерлік қоғамдардың саны күрт өсті.


Пайдаланған әдебиеттер:

1. Ширшова Л. В. Анализ развития малого и среднего предпринимательства в Республике Казахстан. *Вестник. Серия экономическая*. 2018.№ 2.С. 116.
2. Воевудка Ю. А. Государственная поддержка малого и среднего предпринимательства в Казахстане. *Финансы Казахстана*. 2015. № 5.
3. "Даму" кәсіпкерлікті дамыту қоры " АҚ сайты. URL: http://www.damu.kz .


# BÖHRAN ŞƏRAITINDƏ SAHIBKARLIQ FƏALIYYƏTININ HƏYATA KEÇIRILMƏSINDƏ YARANAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI


*Kərimli Günel Fazil qızı*

*Mingəçevir Dövlət Universiteti, Azərbaycan*


Sahibkarlıq fəaliyyəti mənfəət əldə etmək məqsədilə məhsul satışı və xidmətlərin göstərilməsindən ibarət idarəetmə üsuludur. Bazar iqtisadiyyatı şəraitində sahibkarlıq ayrı-ayrı şəxslərin, eləcə də bütövlükdə cəmiyyətin sürətli inkişafını təmin edir və buna əsasən demək olar ki, sahibkarlıq cəmiyyətin əsas aparıcı qüvvəsidir. Cəmiyyət və onun üzvlərinin tələbatı olan məhsul və xidmətləri aşkara çıxarmaqla, bu ehtiyacların ödənilməsi məqsədilə sahibkarlar yeni müəssisələr yaradırlar. Bu da yeni iş yerlərinin yaradılmasına gətirib çıxarır. Bununla da, yeni müəssisələrdə yaranmış yeni iş yerlərində ehtiyacı olan insanlar işlə təmin olunurlar və əmək haqqı alırlar, müəssisə sahibləri-sahibkarlar isə mənfəət, gəlir əldə edirlər. Bu, həm də dövlət büdcəsinə vergilərin daxil olması deməkdir [2].

Qeyri-sabit zamanlarda insanlar həmişə olduğundan qeyri-adi davrana bilirlər. Bu baxımdan, hətta artıq hədəf auditoriyasını öyrənmiş şirkətlər də böhran dövründə

analitikləri yenidən toplayaraq, tələb oluna biləcək yeni ideyalar barədə düşünməlidirlər. Baş verən hadisələrin fonunda insanların hansı yeni ehtiyaclarının olduğunu müəyyən edərək qiymətləndirmək, bu ehtiyacları necə təmin etmək barədə düşünmək lazımdır. Bu, böhran vəziyyətində sahibkarlara bizneslərini daha səmərəli aparmağa imkan verəcək. Böhran zamanı insanların artıqlıqdan imtina edərək, daha çox həyat üçün vacib olan minimuma diqqət yetirməyə meyilli olurlar. Buna əsasən, ilk növbədə bu dövr üçün insanların ehtiyaclarını ödəyə biləcək mallar diqqət mərkəzində saxlanılmaqla, bu biznesə investisiya qoyula bilər.

Son illərdə "Covid-19" pandemiyası öz təsiri ilə qlobal iqtisadi böhrana çevrilərək, İkinci Dünya müharibəsindən sonra ən şiddətli zaman periodu kimi dünya əhalisinin yaddaşına həkk olundu. Bundan əvvəl baş vermiş "Maliyyə böhranı-2008" və "Böyük Depressiya" dan fərqli olaraq pandemiya böhranı görülmüş bir sıra çevik tədbirlər nəticəsində özünün "post" dövrünə daha tez yaxınlaşdı. Artıq dünyanı və ayr-ayrı ölkləri düşündürən əsas məqam post-pandemiya dövrü üçün hazırlıqlar və qloballaşan dünyanın yeni tələblərinə cavab vermək yolunda atılması vacib olan addımlardır. Pandemiya dövründə rəqəmsal texnologiyaların eksponent olaraq böyüməsinin şahidi olduq və bu dövrdə onlardan istifadə daha da qloballaşdı. "Covid-19" böhranı göstərdi ki, artıq dünyada texnologiya, rəqəmsallaşma üzrə yeni dönəm başlamışdır.

Pandemiyanın səbəb olduğu dərin maliyyə böhranı bir sıra ölkələrin iqtisadiyyatının tənəzzülə uğramasına və sosial gərginliyin artmasına gətirib çıxardı. Qlobal böhranın təsirindən maksimum qorunmağa çalışan Azərbaycanda sahibkarlığa dəstək məqsədilə bir sıra tədbirlər görülmüş, dövlət fondları və müəyyən maliyyə resursları səfərbər edilərək ümumi maliyyə dəstək paketi 3.5 milyard manatdan artıq olmuşdur [3].

Böhranlar təşkilatda qəfil və ya tədricən pozulmalara səbəb olduğu üçün böhranların idarə olunması təşkilatı normal fəaliyyətə qaytarmaqdan ibarətdir. Düzgün yanaşma ilə böhran şirkətin bazar payını artırmağa, biznes proseslərin optimallaşdırılmasına, yeni tərəfdaşların əldə edilməsini asanlaşdırmağa, yaranan imkanları reallaşdırma imkan verən vaxt ola bilər. Böhranlar şirkətin strategiyasına yenidən baxmağı tələb edir və inkişaf üçün yeni stimullar axtarmağa məcbur edir. Strategiyaya yenidən baxılması, şirkətin bazarda hansı mövqe tutduğunu əvvəlcədən qiymətləndirməklə dəyişən bazar şərtlərinə tez reaksiya verilməsinə, alıcıları vaxtında dəyişməyə imkan verəcək.

Böhranda xüsusilə kiçik bizneslər böyük problemlərlə üzləşə bilərlər. Bu zaman şirkətin həyat fəaliyyəti ilk növbədə şirkət sahibinin necə davranmasından asılıdır. Böhran zamanı biznesi böyük itkilərdən qorumaq üçün şirkətdə əməl olunması vacib bir neçə qayda var. İlk növbədə ən vacib yerinə yetirilməli olan tədbir xərclərin mümkün ən aşağı səviyyəyə endirilməsidir. Bahalı təmir və yaxud kompleks marketinq tədqiqatlarının daha sakit vaxtlara qədər təxirə salınması məqsəduyğundur. Təchizatçıların rəqiblərinin qiymətlərini təhlil etməklə, qiymətləri daha sərfəli olan birini tapmaq olar ki, bu da pula qənaət edilməsinə səbəb ola bilər.

Yerinə yetirilməsi vacib olan digər tədbirlərdən biri isə maliyyənin sadələşdirilməsi, riskin azaldılması ola bilər. Çünki məhsullara tələb azalarsa, aylıq

kredit ödənilməsində yaranan çətinlik şirkəti iflas edə bilər. Yeni kreditlərə müraciət ehtiyacı yaranarsa, fazilərini artırmayan bank seçmək olar.

Növbəti addım hesabat işinin sadələşdirilməsi, onun səmərəliliyini və şəffaflığını artırmaq sahəsində görülən işlər ola bilər. Şəffaf hesabat həm potensial investorlarla danışıqlarda, həm də tənzimləyici orqanlarla münasibətlərdə üstünlük verəcək.

Sahibkarların rahat fəaliyyət göstərməsi, sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli biznes mühitinin yaradılması sahəsində ən çox islahatlar aparan ölkələrdən biri də Azərbaycandır. Postneft iqtisadiyyatının qurulması, ölkədə idxaldan asılılığın azaldılması və ixrac potensialının gücləndirilməsi məqsədilə rəqabət qabiliyyətinə malik olan məhsulların istehsalı üçün hökumət sahibkarlığın inkişafına böyük imkanlar yaradıb. Sahibkarlığın inkişafı sahəsində aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadi göstəricilərinə görə 2021-ci ildə nüfuzlu beynəlxalq qurumların reytinqlərində yuxarı sıralarda yer almışdır. Azərbaycan Dünya bankı tərəfindən on ən islahatçı ölkələr sırasında yer almış, Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında bir sıra göstəricilərinə görə ön sıralarda olmuşdur. Heritic fondunun 2021-ci il nəticələrinə görə isə İqtisadi Azadlıq İndeksinə əsasən 178 ölkə sırasında Azərbaycan 38-ci pilləyə yüksəlmişdir [3].

Ədəbiyyat:

1. Robert Wuebker , Zoltan J. Acs, Richard Florida “The Globalization of Innovation and Entrepreneurial Talent: The Changing Context of Venture Capital Investment”

2. Sahibkarlıq fəaliyyəti haqqında. URL: https://e-qanun.az/framework/7920

3. Ahibkarlığın inkişafında dönüş günü - 25 aprel 2002-ci il. URL: https://www.azerbaijan-news.az/az/posts/detail/sahibkarligin-inkisafinda-donus-gunu-25-aprel-2002-ci-il-1650582314

## TƏLATÜMLƏR DÖVRÜNDƏ KARYERA

*Rəsulov Zaur*
*Mingəçevir Dövlət Universitetinin baş müəllimi*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*

Karyera inkişafı idarəetmə kurslarında illər boyunca vacib mövzu olsa da, bəzi dramatik dəyişikliklər onun nəzəriyyəsinə təsir edib. Karyera inkişafı proqramları əvvəllər əməkdaşları spesifik təşkilat daxilində iş həyatlarını inkişaf etdirmək üçün formalaşdırılmışdı. Belə proqramların hədəf nöqtəsi əməkdaşlara öz karyera hədəflərini müəyyənləşdirməkdə kömək edərək onlara ehtiyac duyduqları informasiya və təlimlər vermək idi. Karyera inkişafı təşkilatlar üçün həm də yüksək istedadlı şəxsləri cəlb etmək və qorumaq üsulu idi. Müasir iş yerlərində bu yanaşma artıq öz aktuallığını itirir. İndi təşkilatların belə ənənəvi karyera proqramları çox azdır.

Pandemiya dövründə baş verənlər də çoxlarını öz karyera planlarını